# MƏİŞƏT ZORAKILIĞI VƏ ONUNLA MÜBARİZƏ

## mövzusunda

(Hüquqşünaslar, yerli icra hakimiyyəti orqanları, tibb müəssisələri, qeyri-hökumət təşkilatlarının işçiləri və nümayəndələri, həmçinin ali məktəblərin hüquq fakültələrində təhsil alan tələbələr üçün)

MAARİFLƏNDİRİCİ VƏSAİT

© BMT-nin Əhali Fondu
2022

# ƏSAS ANLAYIŞLAR

## Məişət zorakılığı nədir?

“Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanunun (bundan sonra Qanun) 1.0.1-ci və 4.0-cı maddələrinə əsasən, məişət zorakılığı - yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə (məişət zəminində), aşağıdakı şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurmasıdır:

- **yaxın qohum olan ailə üzvləri (ər, arvad, valideynlər, uşaqlar, nənələr, babalar, nəvələr, doğma və ögey qardaşlar və bacılar, övladlığa götürmüş və övladlığa götürülmüş şəxslər), habelə birgə yaşadığı hallarda digər qohumlar;**

- **nikah pozulduqdan sonra birgə və ya ayrılıqda yaşayan keçmiş ər-arvad;**

- **qəyyum və ya himayəçi təyin olunmuş fiziki şəxslər, habelə üzərində qəyyumluq və ya himayəçilik təyin edilmiş şəxslər;**

- **qanuni nikahda olmadan birgə yaşayan kişi və qadın, habelə onlarla birgə yaşayan yaxın qohumlar.**

Sadalanan şəxslərin dairəsinin müəyyən olunması mühüm əhəmiyyət kəsb edir. Belə ki, məhz sadalanan şəxslər arasında zorakılıq baş verdiyi halda bu, məişət zorakılığı kimi qiymətləndiriləcəkdir. Beləliklə, məişət zorakılığını digər zorakılıqlardan ayıran şərt zorakılığın mahiyyəti yox, zorakılığı törədən və ona məruz qalan şəxslərin dairəsidir.



## Məişət zorakılığının hansı növləri var?

Məişət zorakılığından zərərçəkmiş şəxs — məişət zəminində fiziki, psixi və cinsi zorakılıq, habelə iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi nəticəsində fiziki və ya mənəvi zərərçəkmiş şəxsdir.

Məişət zəminində fiziki zorakılıq — qəsdən fiziki təzyiq göstərmə, yəni zor tətbiq etməklə təhlükəsizliyi pozma, döymə, sağlamlığa zərər vurma, işgəncə vermə, azadlıq hüququnu məhdudlaşdırma. Fiziki zorakılıq fiziki zədəyə, habelə həyati təhlükəli vəziyyətə səbəb ola bilər;

Məişət zəminində psixi zorakılıq — qəsdən psixi təzyiq göstərmə və ya dözülməz psixi şərait yaratma (hədə-qorxu, təhqir, şəxsiyyəti alçaltma və s.);

Məişət zəminində cinsi zorakılıq — zərərçəkmiş şəxsin iradəsi əleyhinə seksual xarakterli hərəkətlərə məcburetmə (zorlama, cinsi əlaqəyə, o cümlədən qeyri-ənənəvi cinsi əlaqəyə girməyə məcburetmə və s.);

Məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi — zərərçəkmiş şəxsin mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrumetmə, iqtisadi asılılıq yaratma, belə asılılığı saxlama və ya ondan sui-istifadə etmə (işləmək və ya müstəqil alış-veriş qadağası, əmək haqqını və ya bank kartını tələb etmə və s.).

Qanunvericilik həmçinin cinayət xarakterli və cinayət xarakterli olmayan məişət zorakılığını da müəyyən edir.

# CİNAYƏT TƏQİBİ ORQANLARINDA CİNAYƏT XARAKTERLİ MƏİŞƏT ZORAKILIĞI İLƏ BAĞLI ŞİKAYƏTLƏRİN ARAŞDIRILMASI

## Məişət zorakılığı cinayət əməli kim

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (CM) “məişət zorakılığı” deyilən cinayət əməli nəzərdə tutulmayıb. Lakin yaxın qohum olan ailə üzvləri, birgə yaşadığı hallarda digər qohumlar, nikah pozulduqdan sonra birgə və ya ayrılıqda yaşayan keçmiş ər-arvad, qəyyumlar (himayəçilər), habelə üzərində qəyyumluq (himayəçilik) təyin edilmiş şəxslər, qanuni nikahda olmadan birgə yaşayan kişi və qadın, habelə onlarla birgə yaşayan yaxın qohumlar məişət zəminində bir-birinə qarşı Cinayət Məcəlləsində nəzərdə tutulmuş əməlləri (məsələn: qəsdən adam öldürmə, qəsdən sağlamlığa zərər vurma, zorlama və s.) törədərlərsə, bu əməllər cinayət xarakterli məişət zorakılığıdır.

**Məişət zəminində ən çox aşağıda adları çəkilən cinayətlər törədilir:**

- **Həyat və sağlamlıq əleyhinə olan cinayətlər: qəsdən adam öldürmə cinayətləri, özünü öldürmə həddinə çatdırma, qəsdən sağlamlığa müxtəlif dərəcəli zərər vurma, əzab vermə, öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə;**

- **Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər: insan alveri, məcburi əmək, qanunsuz azadlıqdan məhrumetmə;**

- **Şəxsin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər: zorlama, seksual xarakterli zorakılıq hərəkətləri, seksual xarakterli hərəkətlərə məcburetmə, on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə, əxlaqsız hərəkətlər;**

- **Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər: qadını nikaha daxil olmağa məcburetmə.**

## Cinayət təqibi orqanları

Cinayət təqibi orqanları törədilən məişət zorakılığı əməlindən asılı olaraq ya polis orqanları (Daxili İşlər Nazirliyi), ya da prokurorluq orqanlarıdır.

**• Prokurorluq orqanlarının ibtidai istintaq apardığı cinayətlər: qəsdən adam öldürmə cinayətləri, özünü öldürmə həddinə çatdırma, qəsdən sağlamlığa ağır zərər vurma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olma, qanunsuz azadlıqdan məhrumetmə, zorlama.**

**• Polis orqanlarının (Daxili İşlər Nazirliyi) ibtidai istintaq apardığı cinayətlər: qəsdən sağlamlığa müxtəlif dərəcəli zərər vurma (sağlamlığa ağır zərər vurma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olan hallar istisna olmaqla), əzab vermə, öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə, insan alveri, məcburi əmək, seksual xarakterli zorakılıq hərəkətləri, seksual xarakterli hərəkətlərə məcburetmə, on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə, əxlaqsız hərəkətlər, qadını  nikaha daxil olmağa məcburetmə.**

## Məişət zorakılığı ilə bağlı cinayətlərin araşdırılması

Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində (CPM) məişət zorakılığı ilə bağlı olan cinayətlərin araşdırılmasının xüsusi qaydası nəzərdə tutulmamışdır. Məsələn, məişət zorakılığı ilə bağlı olan cinayət işinin başlanması proseduru digər xarakterli cinayət işlərinə də şamil olunan ümumi qaydalara tabedir. Yəni bu tipli cinayətlər üzrə cinayət təqibi (cinayət hadisəsinin müəyyən edilməsi, cinayəti törətmiş şəxslərin ifşa olunması, ittiham irəli sürülməsi, ittihamın məhkəmədə müdafiə edilməsi, cəza təyini, prosessual məcburiyyət tədbirləri ilə bağlı fəaliyyət) digər cinayətlərlə eyni qaydada həyata keçirilir. Eyni zamanda cinayət təqibi orqanları cinayət təqibi ilə yanaşı, “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunun 7-ci maddəsində göstərilən aşağıdakı tədbirləri də görməlidirlər:



**◦ zərurət olduqda zərərçəkmiş şəxsin dövlət vəsaiti hesabına dərhal tibbi yardımla, yardım mərkəzində müvəqqəti sığınacaqla, geyim və qida məhsulları ilə təmin edilməsi, habelə onun barəsində psixoloji reabilitasiya və psixoloji korreksiya kursunun aparılması məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə məlumat göndərmək;**

**◦ məişət zorakılığının yaranmasına səbəb olan halları aşkar etmək və onların qarşısını almaq istiqamətində tədbirlər görmək;**

**◦ məişət zorakılığının qarşısının alınmasını, onun təkrarlanmamasını, araşdırmanın aparıldığı müddət ərzində zərərçəkmiş şəxsin təhlükəsizliyini təmin etmək;**

**◦ araşdırmanın aparılması zamanı tərəflərin münasibətlərinin normallaşmasına və ailədə münasibətlərin bərpa olunmasına kömək göstərmək;**

**◦ məişət zorakılığını törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və onlarla tərbiyəvi-qabaqlayıcı işin aparılması üçün tədbirlər görmək;**

**◦ məişət zorakılığından əziyyət çəkən ailə üzvlərinə onların hüquqlarını, dövlət tərəfindən yaradılan və qanunla müəyyən edilən vasitələrdən istifadə qaydalarını izah etmək;**

**◦ zərərçəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə əlaqədar tədbirlər görmək;**

**◦ məişət zorakılığı ilə bağlı şikayətin araşdırılması nəticəsində cinayət işinin başlanması üçün əsaslar müəyyən olunmadığı halda həmin şikayəti aidiyyəti üzrə müvafiq icra hakimiyyəti orqanına göndərmək;**

**◦ zəruri hallarda məişət zorakılığı barədə şikayətlər üzrə araşdırmanı aparan digər dövlət orqanlarına kömək göstərmək.**

**Beləliklə, zərərçəkmiş şəxs və ya onun ailə üzvü şikayətində təkcə məişət zorakılığı ilə bağlı cinayətin araşdırılmasını deyil, həm də yuxarıda sadalanan zəruri tədbirlərin görülməsini (məsələn, zərərçəkmiş şəxsin dövlət vəsaiti hesabına dərhal tibbi yardımla, yardım mərkəzində müvəqqəti sığınacaqla, geyim və qida məhsulları ilə təmin edilməsini və s.) cinayət təqibi orqanlarından tələb etməlidir.**

## Məişət zorakılığı ilə bağlı cinayətlərin cinayət təqibi orqanlarında araşdırılmasının nəticələri

Məişət zorakılığı ilə bağlı şikayətlərin cinayət təqibi orqanlarında araşdırılmasının nəticəsi olaraq aşağıdakı qərarlardan biri qəbul edilməlidir (CPM, 207.5-ci maddə):

- **cinayət işini başlamaq;**
- **cinayət işinin başlanmasını rədd etmək;**
- **məlumatı istintaq aidiyyəti üzrə göndərmək.**

**Beləliklə, cinayət xarakterli məişət zorakılığı törədilərsə, istintaq aidiyyətindən asılı olaraq, ya polis, ya da prokurorluq orqanlarına müraciət olunmalıdır. Şikayətdə (müraciətdə) istintaq aidiyyəti düzgün müəyyən olunmasa belə, məlumatı istintaq aidiyyəti üzrə göndərmək cinayət təqibi orqanlarının vəzifəsidir. Məsələn, zərərçəkmiş şəxs şikayətində keçmiş həyat yoldaşının onu öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələməsindən şikayət edir, lakin şikayət ərizəsini prokurorluğa göndərir. Bu halda prokurorluq orqanının vəzifəsi məlumatı istintaq aidiyyəti üzrə polis orqanına yönəltməkdir.**



# İNZİBATİ XƏTA XARAKTERLİ MƏİŞƏT ZORAKILIĞI İLƏ BAĞLI ŞİKAYƏTLƏRİN ARAŞDIRILMASI

## “Məişət zorakılığı” inzibati xətası və bu xətaları araşdıran orqanlar

İnzibati Xətalar Məcəlləsinin (İXM) “Məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulması” adlı 158-ci maddəsində məişət zorakılığının 2 növünə görə inzibati məsuliyyət müəyyən olunmuşdur:

- **iqtisadi zorakılığa görə yüz manatdan üç yüz manatadək məbləğdə cərimə;**

- **psixi zorakılığa görə üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə.**

Bu əməllər CM-ə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda inzibati məsuliyyət yaranır. Hər iki inzibati xətaya dair işlərə rayon (şəhər) məhkəmələrində baxılır. Bu işlər üzrə inzibati xəta haqqında protokol Daxili İşlər Nazirliyi adından nazirliyin vəzifəli şəxsləri (Daxili İşlər naziri, onun müavinləri, Nazirliyin Aparatının baş idarə (idarə) rəisləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, onun müavinləri, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin idarə rəisləri, onların müavinləri, şəhər, rayon polis idarələrinin (şöbələrinin) və ərazi polis bölmələrinin rəisləri, onların müavinləri, baş təhqiqatçılar, təhqiqatçılar, baş əməliyyat müvəkkilləri, əməliyyat müvəkkilləri, polis sahə rəisləri, polis sahə inspektorları, yetkinlik yaşına çatmayanlarla iş üzrə inspektorlar) tərəfindən tərtib olunur.

**Beləliklə, iqtisadi və ya psixi zorakılığa məruz qalmış şəxs (zorakılıq cinayət xarakterli olmamalıdır), məsələn, bank kartı əri tərəfindən əlindən alınmış qadın və ya mütəmadi olaraq əri tərəfindən tənbeh edilən qadın şikayətlə polis orqanlarına müraciət edə və inzibati xəta haqqında protokolun tərtib edilərək məhkəməyə göndərilməsini tələb edə bilər.**



İXM-in 157-ci maddəsində nəzərdə tutulan “Döymə” adlı inzibati xəta Qanunun 4.0.-cı maddəsində göstərilən şəxslər tərəfindən biri digərinə qarşı törədildiyi halda məişət zorakılığı kimi qiymətləndirilir. Bu əmələ görə cərimə (üç yüz manatdan beş yüz manatadək) ilə yanaşı inzibati həbs (iki ayadək müddətə) növündə inzibati tənbeh nəzərdə tutulmuşdur. Bu inzibati xəta ilə bağlı işlərə həm rayon (şəhər) məhkəməsində (işə məhkəmədə baxılarkən inzibati xəta haqqında protokol polis orqanlarında tərtib olunur), həm də polis orqanlarında baxıla bilər. İnzibati xətanın xarakteri, inzibati xəta törədənin şəxsiyyəti, onun təqsirinin dərəcəsi, məsuliyyəti ağırlaşdıran hallar (inzibati tənbeh almış şəxsin eyni xətanı inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törətməsi, inzibati xətanın yetkinlik yaşına çatmayanlara qarşı törədilməsi, inzibati xətanın bir qrup şəxs tərəfindən törədilməsi, inzibati xətanın sərxoş halda olan şəxs tərəfindən törədilməsi və s. – İXM, maddə 33) nəzərə alınmaqla inzibati həbsin tətbiqi üçün əsaslar olarsa, işə məhkəmədə baxılmalıdır.

**Döymə və sair zorakı hərəkətlər nəticəsində zərər çəkmiş şəxsin sağlamlığına ağır, az ağır və ya yüngül zərər vurularsa, əmələ görə cinayət məsuliyyəti yaranacaqdır.**

**Beləliklə, döymə və sair zorakı hərəkətlərlə qəsdən fiziki ağrı yaşamış şəxs polis orqanlarına müraciət edə bilər. Əgər bu zorakı hərəkətlər nəticəsində sağlamlığa zərər vurulmayıbsa, bu halda cinayət məsuliyyəti yox, inzibati məsuliyyət yaranacaqdır. Araşdırma nəticəsində inzibati həbsin tətbiqi üçün əsaslar müəyyən edilərsə (məsələn, zorakılıq yetkinlik yaşına çatmayan şəxsə qarşı törədilərsə və ya zorakılığı törədən şəxs sərxoş olarsa), polis inzibati xəta haqqında protokolu məhkəməyə göndərməlidir, bu halda işə baxmaq və inzibati tənbehi tətbiq etmək səlahiyyəti məhkəməyə aiddir. İnzibati həbsin tətbiqi üçün əsaslar olmazsa, polis cərimə növündə inzibati tənbeh tətbiq edə bilər.**



# CİNAYƏT XARAKTERLİ OLMAYAN MƏİŞƏT ZORAKILIĞI İLƏ BAĞLI ŞİKAYƏTLƏRİN YERLİ İCRA HAKİMİYYƏTİ ORQANLARINDA ARAŞDIRILMASI

## Araşdırmanın qaydası

Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlaməti olmadıqda həmin şikayətə zərərçəkmiş şəxsin faktiki yaşadığı (olduğu) yerin icra hakimiyyəti orqanında baxılır.

Hesab edirik ki, məişət zorakılığı barədə şikayətlərin səmərəli araşdırılması üçün yerli icra hakimiyyəti orqanlarının nəzdində peşəkarlardan ibarət vahid şəbəkə (komissiya) yaradılmalı və müraciətlərin həmin şəbəkəyə göndərilməsi müəyyən edilməlidir. Bu proses məişət zorakılığı ilə mübarizə aparmaq üçün vahid koordinasiyanı həyata keçirməyə imkan yaradacaqdır. Həmin şəbəkəyə hüquqşünaslarla birgə, sosial işçilərin və psixoloqların da cəlb edilməsi məqsədəmüvafiq olardı.

Cinayət xarakterli məişət zorakılığı barədə şikayətlərdən fərqli olaraq, məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayət yalnız zərərçəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı ilə araşdırılır. Bu norma məişət zorakılığı olduğu halda digər şəxslərin və yaxud hər hansı bir qurumun bu barədə yerli icra hakimiyyəti orqanına müraciət edilməsinə qadağa qoymur. Əksinə, Qanunun 6.2-ci maddəsinə əsasən, dövlət və yerli özünüidarə orqanlarının vəzifəli şəxsləri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, qəyyumluq və himayə orqanları, təhsil və səhiyyə müəssisələri, yardım mərkəzləri xidməti vəzifələrinin həyata keçirilməsi zamanı məişət zorakılığının törədilməsi barədə aldığı şikayətləri yerli icra hakimiyyəti orqanına göndərməlidirlər. Lakin iş üzrə araşdırma və müvafiq tədbirlərin həyata keçirilməsi yalnız zərərçəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı əsasında həyata keçirilə bilər.

“Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətlərə baxılma Qaydası”nın (bundan sonra Qaydalar) 3.1-ci maddəsinə əsasən, məişət zorakılığı ilə bağlı şikayətə 5 (beş) gün müddətində baxılır və müvafiq qərar qəbul edilir. Həmin müddətdə ilkin araşdırma aparılmalı, məişət zorakılığı faktının mövcudluğu aşkar edildikdə zərərçəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görülməli və məişət zorakılığı halının aradan qaldırılması ilə bağlı gələcək fəaliyyət müəyyən edilməlidir.

Qaydaların 3.2-ci maddəsinə əsasən, araşdırma aparmaq üçün əlavə materiallar tələb etmək və ya əlavə xüsusatları öyrənmək lazım gəldiyi halda müəyyən edilmiş 5 (beş) gün müddət əlavə olaraq 5 (beş) gündən çox olmamaqla uzadıla bilər. Odur ki araşdırmanın maksimal müddəti 10 (on) gün müəyyən edilmişdir.

Araşdırma aparılarkən yerli icra hakimiyyəti orqanının nümayəndəsi tərəfindən istər zərərçəkmiş şəxs, istərsə də məişət zorakılığını törətmiş şəxs dindirilə bilər. Həmçinin yerli icra hakimiyyəti orqanının nümayəndəsi (yaxud nümayəndələri) hadisə yerinə gəlmək və orada araşdırma aparmaq səlahiyyətinə malikdir (Qaydaların 3.3-cü maddəsi).

Qaydaların 3.4-cü maddəsinə əsasən, zərərçəkmiş şəxs tələb edərsə, dinləmədə vəkil və psixoloqun iştirakı təmin edilməlidir. Dinlənilən şəxs Azərbaycan dilini bilmədikdə tərcüməçidən istifadə olunur.
Beləliklə, tərkibində cinayət əlamətləri olmayan məişət zorakılığının araşdırılması zamanı qanunvericilikdə məişət zorakılığından zərər çəkmiş şəxsin sadəcə hüquqşünas deyil, peşəkar vəkilin yardımından istifadə etmək hüququ nəzərdə tutulmuşdur.

Məişət zorakılığından zərər çəkmiş şəxslərdən biri 16 yaşınadək və ya sağlamlıq imkanları məhdud şəxs olduqda aparılan araşdırma və dinləmələrdə pedaqoqun və ya psixoloqun iştirakı məcburidir (Qaydaların 3.5-ci maddəsi).



Yerli icra hakimiyyəti orqanı məişət zorakılığı barədə müraciətləri araşdırdıqdan sonra aşağıdakı qərarlardan birini qəbul etməlidir (Qanunun 9 və Qaydaların 4.1-ci maddələri):

1) **məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsə məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi və zərərçəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməsi;**

2) **məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı məhkəməyə müraciət edilməsi;**

3) **əməllərində cinayət tərkibi və ya inzibati xəta olan şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada cinayət və ya inzibati məsuliyyətə cəlb edilməsi barədə səlahiyyətli dövlət orqanlarına müraciət edilməsi;**

4) **zərərçəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi ilə əlaqədar məhkəməyə müraciət edilməsi;**

5) **zərərçəkmiş şəxsin yardım mərkəzində sığınacaqla təmin edilməsi.**
**Bu və ya digər qərarın qəbul edilməsi işin hallarından və zorakılığın xarakter və ağırlığından asılıdır.**

Yuxarıda sadalanan qərarları analiz edərkən müəyyən olunur ki, yerli icra hakimiyyəti orqanı məişət zorakılığı törədən şəxsin hüquqlarının əhəmiyyətli dərəcədə məhdudlaşdırılması ilə nəticələnən tədbirləri müstəqil qaydada tətbiq etmək səlahiyyətinə malik deyil, hüquqların əhəmiyyətli dərəcədə məhdudlaşdırılması ilə bağlı tədbirlərin tətbiqi üçün icra hakimiyyəti orqanı məhkəməyə müraciət etməlidir. Bu hal ondan irəli gəlir ki, fərdin konstitusiya ilə təsbit edilmiş hüquqları yalnız ədalət mühakiməsi qaydasında məhkəmələr tərəfindən məhdudlaşdırıla bilər.

O cümlədən araşdırma zamanı şəxsin öz uşaqlarına qarşı zorakılıq törədilməsi faktı müəyyən edildikdə, yerli icra hakimiyyəti orqanı məişət zorakılığı törədən şəxsin valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı ərizə ilə məhkəməyə müraciət edə bilər.

**Beləliklə, məişət zorakılığına məruz qalmış şəxs zorakılığın cinayət və ya qeyri- cinayət xarakterli olmasından asılı olmayaraq, yaşadığı (olduğu) yer üzrə yerli icra hakimiyyəti orqanına şikayət ərizəsi ilə müraciət edə bilər. Yerli icra hakimiyyəti orqanında araşdırma nəticəsində zorakılıq törədən şəxsin əməllərində cinayət tərkibinin və ya inzibati xətanın əlamətləri müəyyən olunarsa, yerli icra hakimiyyəti orqanı həmin şəxsin cinayət və ya inzibati məsuliyyətə cəlb edilməsi barədə səlahiyyətli dövlət orqanlarına müraciət edəcəkdir. İşin hallarından asılı olaraq, zərərçəkmiş şəxsə qısamüddətli mühafizə orderi verilə bilər. Zorakılıq törətmiş şəxsin valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması, o cümlədən zərərçəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi ilə əlaqədar da məhkəməyə müraciət edilə, həmçinin zərərçəkmiş şəxs yardım mərkəzində sığınacaqla təmin edilə bilər.**





# MÜHAFİZƏ ORDERİ: ANLAYIŞI, NÖVLƏRİ VƏ VERİLMƏ QAYDASI

“Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunda Azərbaycan qanunvericiliyi üçün yeni anlayış – məişət zorakılığından zərər çəkmiş şəxsin müdafiəsini təmin edən mexanizm – mühafizə orderi təsbit edilmişdir. Mühafizə orderinin tətbiqinin məqsədi məişət zorakılığından zərər çəkmiş şəxslərin zorakılığa yenidən məruz qalmasının qarşısını almaqdan ibarətdir.

Mühafizə orderinin tətbiqi məişət zorakılığından zərər çəkmiş şəxsin hüquqlarının müdafiəsi ilə bağlı fəaliyyətdə böyük rol oynayır. Belə ki, əksər hallarda zərərçəkmiş şəxsin zorakılıq törətmiş şəxsdən ayrılaraq başqa yerdə qalması aşağıdakı səbəblərdən mümkün olmur və o, zorakılıq törətmiş şəxslə bir yerdə qalmağa davam edir:

- **zərərçəkmiş şəxsin başqa yerdə yaşamasına imkanı yoxdur, həmçinin o, evini itirmək istəmir;**
- **ailənin və yaxınlarının qınağına məruz qalmaqdan çəkinir;**
- **ayrıldığı halda ona və uşaqlara qarşı zorakılığın kəskinləşməsindən qorxur;**
- **məişət zorakılığını törətmiş şəxs ailəni saxladığı halda maliyyə sabitliyini itirməkdən qorxur (bu qorxu uşaqlar olduqda daha da artır);**
- **uşaqların psixi sağlamlığı barədə narahat olur;**
- **uşaqlardan ayrı düşməkdən və uşaqlarla ünsiyyət yaratmaqda çətinlik çəkməkdən qorxur.**

Bu səbəblərdən məişət zorakılığını törətmiş şəxslə bir mənzildə (evdə) yaşamağa məcbur olan zərərçəkmiş şəxs üçün mühafizə orderi yeganə qorunma vasitəsinə çevrilir.



Qanunvericilikdə mühafizə orderinin iki növü nəzərdə tutulmuşdur:

- **qısamüddətli mühafizə orderi**
- **uzunmüddətli mühafizə orderi**

Adıçəkilən orderlər tək tətbiqetmə müddətləri ilə deyil, onları tətbiq edən orqan, həmçinin orderdə nəzərdə tutulan tədbirlərin xarakteri ilə də fərqlənirlər.

## Qısamüddətli mühafizə orderi:

Qanunun 11.1-ci maddəsinə əsasən, zərərçəkmiş şəxsə qısamüddətli mühafizə orderini yerli icra hakimiyyəti verir.

Qanunun 11.2-ci maddəsinə əsasən, yerli icra hakimiyyəti orqanı müraciət edən vaxtdan 24 (iyirmi dörd) saat keçənədək məişət zorakılığı törətmiş şəxsə həmin və ya ona oxşar hərəkətlərin təkrarlanmaması barədə yazılı xəbərdarlıq edir və dərhal zərərçəkmiş şəxsə 30 (otuz) gün müddətinədək qısamüddətli mühafizə orderi verir.

Qaydaların 5.4-cü maddəsinə əsasən, xəbərdarlıq edilməsindən məhkəməyə şikayət verilə bilər.

**Qısamüddətli mühafizə orderində məişət zorakılığını törətmiş şəxsə aşağıdakılar qadağan edilə bilər:**

**1) məişət zorakılığının təkrar törədilməsi (Qanunun 10.2.1-ci maddəsi);**

**2) zərərçəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması (Qanunun 10.2.2-ci maddəsi);**

**3) zərərçəkmiş şəxsə narahatlıq gətirən digər hərəkətlərin edilməsi (Qanunun 10.2.3-cü maddəsi).**

İlk iki tədbir məişət zorakılığını törətmiş şəxsə konkret hərəkətlərin törədilməsini qadağan edir (artıq törətdiyi hərəkəti təkrar törətmək və zərərçəkmiş şəxsi axtarmaq). Üçüncü qadağa isə (Qanunun 10.2.3-cü maddəsi) ümumi xarakter daşıyır və yerli icra hakimiyyəti orqanı, həmçinin məhkəmələrə (məhkəmələr tərəfindən orderlərin verilmə qaydası aşağıda araşdırılmışdır) məişət zorakılığını törətmiş şəxsin üzərinə müxtəlif qadağaların qoyulmasına imkan yaradır. Yerli icra hakimiyyəti orqanı və məhkəmə öz mülahizəsinə görə mühafizə orderində ağlabatan və mütənasib qadağalar nəzərdə tuta bilərlər.

Sözügedən müddəanı (Qanunun 10.2.3-cü maddəsi) analiz etdikdə belə qənaətə gəlmək olar ki, məişət zorakılığı törətmiş şəxsin üzərinə passiv öhdəliklər – yəni zərərçəkmişi narahat edə biləcək hər hansı bir hərəkətin edilməməsi ilə bağlı vəzifələr qoyula bilər: məsələn, zərərçəkmiş şəxsi təhqir etmək, onun işlədiyi, oxuduğu, əyləndiyi və s. yerlərə getmək, mənzilə sərxoş vəziyyətdə gəlmək, zərərçəkmiş şəxsə zəng etmək.

Lakin bir çox inkişaf etmiş ölkələrin, o cümlədən Amerika Birləşmiş Ştatlarının qanunvericiliyinə nəzər salsaq, müəyyən edərik ki, mühafizə orderində göstərilən tədbirlər milli qanunvericiliklə müqayisədə daha dəqiqliklə tənzimlənir, həmçinin mühafizə orderində zorakılıq törətmiş şəxsin üzərinə bir çox aktiv hərəkətlərdən ibarət vəzifələrin qoyulması nəzərdə tutulur (uşaqların pasportlarının və doğum haqqında şəhadətnamələrinin zərərçəkmiş şəxsə verilməsini təmin etmək, mənzilin (evin) açarlarını zərərçəkmiş şəxsə vermək; əgər zorakılığı törətmiş şəxs hüquq-mühafizə orqanının əməkdaşıdırsa, zərərçəkmiş şəxsi qorxutmaq, narahat etmək və ya izləmək məqsədilə öz səlahiyyətindən istifadə etməmək).

1996-cı ildə BMT tərəfindən iştirakçı dövlətlərə tövsiyə edilən "Məişət zorakılığı ilə mübarizə sahəsində tövsiyə olunan model qanunvericiliyi"n "Ədliyyə əməkdaşlarının vəzifələri" adlanan 4-cü bölməsində mühafizə orderinin iki növü qeyd edilir: fövqəladə müvəqqəti məhdudlaşdırıcı orderlər və mühafizə orderləri.



Milli qanunvericiliklə müqayisədə BMT-nin təklif etdiyi model qanunvericilik də orderlərdə məişət zorakılığı törətmiş şəxsin üzərinə daha geniş vəzifələrin qoyulmasını nəzərdə tutur. Belə ki, model qanunvericiliyə əsasən, hər iki növ orderlə evin (mənzilin) kimin mülkiyyətində olmasından asılı olmayaraq, zorakılıq törətmiş şəxsin üzərinə yaşadığı evi tərk etmək vəzifəsi qoyula bilər. Qanunda və Qaydalarda isə bu hal nəzərdə tutulmamışdır.

Bir daha qeyd edək ki, Qanunun 10.2.3-cü maddəsinə əsasən, məişət zorakılığı törətmiş şəxsə yalnız zərərçəkmiş şəxsə narahatlıq gətirən bu və ya digər hərəkətin edilməsi qadağan oluna bilər. Bu norma məişət zorakılığını törətmiş şəxsin üzərinə zərərçəkmiş şəxsin xeyrinə hər hansı bir hərəkətin edilməsi ilə bağlı vəzifələrin qoyulmasına imkan yaratmır.

Öz növbəsində, "Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizəyə dair" Avropa Şurasının Konvensiyasının 52-ci maddəsi ilə zərərçəkmiş şəxslərə təxirəsalınmaz uzaqlaşdırma orderlərinin verilməsi nəzərdə tutulur ki, həmin orderlə məişət zorakılığı törədən şəxsin üzərinə zərərçəkmişin və ya risk altında olan şəxsin qaldığı yaşayış sahəsini müəyyən müddət üçün tərk etmək vəzifəsi qoyula, eləcə də həmin sahəyə daxil olmaq və zərərçəkmiş şəxslə əlaqə saxlamaq qadağan oluna bilər. Sözügedən maddənin məzmunundan belə nəticəyə gəlmək olar ki, yaşayış sahəsinin kimin mülkiyyətində olması əhəmiyyət kəsb etmir, yetər ki, məişət zorakılığına məruz qalmış şəxs həmin yaşayış sahəsindən istifadə etsin.

Təxirəsalınmaz uzaqlaşdırma orderlərindən başqa həmin Konvensiyada məişət zorakılığından zərər çəkmiş şəxslərə məhdudlaşdırma və ya mühafizə orderlərinin verilməsi də nəzərdə tutulur (maddə 53).

Azərbaycan Respublikasının 27 dekabr 2001-ci il tarixli "İcra haqqında" Qanununa 24 iyun 2011-ci il tarixli 179-IVQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 6.1.9-cu maddə əlavə edilmişdir. Həmin maddəyə əsasən, məişət zorakılığı ilə bağlı işlərə baxmaq səlahiyyəti olan orqanlar tərəfindən verilən qısamüddətli mühafizə orderləri icra sənədlərinə aiddir. Bundan başqa, "İcra haqqında" Qanunun 13.1.5-ci maddəsi qısamüddətli mühafizə orderinin dərhal icraya yönəlməsini nəzərdə tutur.

Qanunun 11.3-cü maddəsinə əsasən, məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin qısamüddətli mühafizə orderinin tələblərinə əməl etməməsi uzunmüddətli mühafizə orderinin verilməsi üçün əsas ola bilər.

## Uzunmüddətli mühafizə orderi:

Qısamüddətli order məişət zorakılığına məruz qalan şəxsin qorunması üçün yetərli olmadıqda (zorakılığı törətmiş şəxs ona əməl etmədikdə, müddət bitdikdən sonra zorakılıq davam etdikdə) yerli icra hakimiyyəti orqanı uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət edə bilər.

Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinin (bundan sonra MPM) 305.1.11-ci maddəsinə əsasən, məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin icraat qaydasında baxılır.

Qeyd edək ki, zərərçəkmiş şəxs özü də müstəqil şəkildə ərizə ilə məhkəməyə müraciət edib uzunmüddətli mühafizə orderinin verilməsini istəyə bilər. Belə ki, MPM-in 355-1.1-ci maddəsinə əsasən, məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxs verilmiş xəbərdarlığa və qısamüddətli mühafizə orderinin tələblərinə əməl etmədikdə zərərçəkmiş şəxs və ya müvafiq icra hakimiyyəti orqanı uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir.

Həmin Məcəllənin 355-1.2-ci maddəsinə əsasən, uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizə zərərçəkmiş şəxsin yaşadığı (olduğu) yer üzrə verilir.

Həmin Məcəllənin 355-2-ci maddəsinə əsasən, uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizədə məişət zəminində qəsdən törədilən fiziki, psixi və ya cinsi zorakılıq və iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi nəticəsində zərərçəkmiş şəxsə fiziki və ya mənəvi zərər vurulmasını təsdiq edən hallar şərh edilməli, ərizəçinin xahişi göstərilməlidir.

Beləliklə, qanunun tələbinə görə, zərərçəkmiş şəxs, yaxud yerli icra hakimiyyəti orqanı uzunmüddətli orderin verilməsi ilə bağlı məhkəməyə ərizə ilə müraciət etdikdə zorakılığın törədilməsini bildirməklə kifayətlənməməli, zorakılığın baş verməsini təsdiq edən halları sadalamalı və həmin halları aşkara çıxaran sübutları ərizəyə əlavə etməlidir. Şəxsin məişət zorakılığına məruz qalması onun ailə üzvlərinin, qonşularının izahatları, tibb müəssisələrindən verilən sənədlər, yerli icra hakimiyyəti tərəfindən aparılan araşdırmanın nəticələri, vaxtilə polis və ya digər orqanlara etdiyi şikayət ərizələrinin surətləri və s. ilə sübuta yetirilə bilər.



Qeyd edək ki, BMT-nin "Məişət zorakılığı ilə mübarizə sahəsində tövsiyə olunan model qanunvericiliyi"n "Ədliyyə əməkdaşlarının vəzifələri" adlanan 4-cü bölməsinə əsasən, mühafizə orderlərinin verilməsi ilə bağlı məhkəmə araşdırmasında sübutetmə yükü cavabdehin üzərinə düşməlidir. Yəni məişət zorakılığı törətdiyi ehtimal olunan şəxs sübut etməlidir ki, o, hər hansı bir zorakılıq hadisəsi törətməyib.

Uzunmüddətli mühafizə orderinin verilməsi barədə ərizəyə məhkəməyə təqdim olunduqdan sonra 3 (üç) gün müddətində baxılmalıdır (MPM-in 355-3.1-ci maddəsi). Lakin hesab edirik ki, bir çox ölkələrdə olduğu kimi, bizim milli qanunvericilikdə də zərurət yarandıqda mühafizə orderinin verilməsi barədə qərarın dərhal qəbul edilməsi halları nəzərdə tutulmalıdır.

Məhkəmə ərizəyə məişət zorakılığından zərər çəkmiş şəxsin və məişət zorakılığını törətmiş şəxsin iştirakı ilə baxır. Əgər icraat yerli icra hakimiyyətinin ərizəsi əsasında aparılırsa, ərizəyə baxılmasında məişət zorakılığı ilə bağlı araşdırmanı aparmış dövlət orqanının nümayəndəsinin iştirakı məcburidir (MPM-in 355-3.2-ci maddəsi).

Məişət zorakılığı ilə bağlı işlərə baxılarkən şəxsi və ailə həyatı barəsində müəyyən edilmiş məlumatlar konfidensial hesab edilir (Qanunun 17.1-ci maddəsi, Qaydaların 6.1-ci maddəsi). Tərəflərin şəxsi və ailə həyatı sirrinin yayılmasının qarşısının alınması, habelə yetkinlik yaşına çatmamış şəxslərin maraqlarının təmin edilməsi məqsədilə uzunmüddətli mühafizə orderinin verilməsi barədə işə qapalı məhkəmə iclasında baxılır (MPM-in 355-3.3-cü maddəsi). İşə mahiyyəti üzrə baxan hakim yekunda ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir (MPM-in 355-4.1-ci maddəsi).

MPM-in 355-4.5-ci maddəsinə və Qanunun 10.3-cü maddəsinə əsasən, uzunmüddətli mühafizə orderində qısamüddətli orderdə olduğu kimi məişət zorakılığını törətmiş şəxsə məişət zorakılığının təkrar törədilməsi, zərərçəkmiş şəxsin olduğu yer ona məlum olmadıqda həmin şəxsin axtarılması, zərərçəkmiş şəxsə narahatlıq gətirən digər hərəkətlərin qadağan edilməsi ilə yanaşı, aşağıdakılardan biri və ya bir neçəsi göstərilir:

**1) məişət zorakılığını törətmiş şəxsin yetkinlik yaşına çatmamış uşaqları ilə ünsiyyət qaydaları;**

**2) yaşayış sahəsindən və ya birgə əmlakdan istifadə qaydalarının müəyyən edilməsi;**

**3) zərərçəkmiş şəxsə tibbi və ya hüquqi yardımın göstərilməsi ilə bağlı xərclərin məişət zorakılığını törətmiş şəxs tərəfindən ödənilməsi şərtləri;**

**4) uzunmüddətli mühafizə orderinin verilməsi barədə qətnamənin icra edilməməsinə görə məsuliyyətin izah edilməsi barədə məlumat.**

Uşaqlarla ünsiyyətin müəyyən edilməsi barədə ərizələrdə məhkəmədən uşaqlarla ünsiyyət qaydalarının dəqiqliklə müəyyən edilməsi xahiş oluna bilər. O cümlədən ərizədə uşaqlarla görüş günləri, saatları və görüşün yeri dəqiq qeyd edilə bilər. Məhkəmədən görüşdə nəzarətçinin iştirakının zəruriliyini nəzərə alması da xahiş edilə bilər. Həmçinin məhkəmədən nəzarətçinin zorakılığı törətmiş şəxsin dostları və qohumlarının sırasından təyin edilməməsini də xahiş etmək olar.

Qanunun 12.2-ci maddəsinə və MPM-in 355-4.6-cı maddəsinə əsasən, uzunmüddətli mühafizə orderi 30 (otuz) gündən 180 (yüz səksən) günədək müddətə verilir.

MPM-in 234.2.2-ci maddəsinə əsasən, məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi haqqında qətnamə dərhal icra olunur. Həmçinin Qanunun 12.4-cü maddəsinə əsasən, uzunmüddətli mühafizə orderinin verilməsi barədə məhkəmə qərarı dərhal icraya yönəldilir və uzunmüddətli mühafizə orderinin müddəti həmin vaxtdan hesablanır.

İstənilən məhkəmə qətnaməsindən olduğu kimi, uzunmüddətli orderin verilməsi barədə məhkəmə qətnaməsindən də qanunvericiliklə müəyyən edilmiş qaydada şikayət verilə bilər. Lakin yuxarı instansiya məhkəməsinə şikayətin verilməsi mühafizə orderi üzrə qərarın icrasını dayandırmır (Qanunun 12.5-ci maddəsi).

Həmçinin "İcra haqqında" 27 dekabr 2001-ci il tarixli Qanunun 12.3-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunvericiliyi ilə və ya icra sənədi ilə icrası dərhal nəzərdə tutulmuş tələblər təxirə salınmadan icra olunur.



Beləliklə, uzunmüddətli mühafizə orderinin verilməsi barədə məhkəmə qətnaməsi dərhal icraya yönəldilməlidir.

Sual oluna bilər ki, məişət zorakılığı törətmiş şəxs uzunmüddətli orderdə göstərilən qaydalara əməl etmədikdə ona qarşı hansı məsuliyyət tətbiq edilə bilər? Nəzərə alsaq ki, uzunmüddətli order məhkəmə qətnaməsi ilə verilir, məişət zorakılığı törədən şəxs orderdə göstərilən şərtlərə əməl etmədikdə öncə AR İnzibati Xətalar Məcəlləsinin 528.1-ci maddəsi ilə (məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun tələblərinin yerinə yetirilməməsi) inzibati məsuliyyətə cəlb edilə bilər: "Məhkəmə və ya digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsinə və ya icra məmuru tərəfindən müəyyən olunmuş müddətdə borclunu müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən icra sənədinin üzrsüz səbəbdən icra edilməməsinə görə fiziki şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla bir ayadək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər min iki yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə edilir".

Yerli icra hakimiyyəti orqanının zərərçəkmiş şəxsə qısamüddətli orderin verilməsi barədə qərarının icra edilməməsi də inzibati məsuliyyət yaradır. Belə ki, yuxarıda qeyd edildiyi kimi, icra sənədinə həmçinin qısamüddətli order də aid edilir.

Uzunmüddətli orderin verilməsi barədə məhkəmə qətnaməsində göstərilən tələblərə əməl edilməməsi isə cinayət məsuliyyəti də yarada bilər. Belə ki, CM-in 306.1-ci maddəsinə əsasən, qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini qərəzli olaraq icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətmə iki min manatdan dörd min manatadək məbləğdə cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Beləliklə, qanunverici mühafizə orderini icra etməməyə görə ciddi cəza nəzərdə tutmuşdur.

## Cinayət xarakterli məişət zorakılığı hallarında mühafizə orderi

Qanunun 7.0.7-ci maddəsinə əsasən, məişət zorakılığı ilə bağlı şikayətlərə cinayət-prosessual qanunvericiliklə baxıldıqda **cinayət təqibi ilə yanaşı zərərçəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə əlaqədar tədbirlər görülməlidir.**

Qeyd edək ki, məişət zorakılığı cinayət tərkibini yaratdıqda və qanunvericilikdə nəzərdə tutulmuş qaydada təqsirləndirilən şəxs barəsində həbs növündə qətimkan tədbiri tətbiq edildikdə zərərçəkmiş şəxsə mühafizə orderinin verilməsi zərurəti yaranmaya bilər. Lakin təcrübədə cinayət xarakterli məişət zorakılığına ən çox qəsdən sağlamlığa yüngül zərər vurma (CM-in 128-ci maddəsi) cinayəti növündə rast gəlinir. Bu cinayəti törətməkdə təqsirləndirilən şəxslər barəsində əsasən başqa yerə getməməyə dair iltizam növündə qətimkan tədbiri tətbiq olunur. Belə olan halda zorakılıqdan zərər çəkmiş şəxsin zorakılığı törətmiş şəxsdən müdafiə olunmağa ehtiyacı yaranır.

Yuxarıda qeyd edildiyi kimi, Qanunun 7.0.7-ci maddəsi cinayət təqibi aparılmaqla yanaşı müvafiq orqanın üzərinə zərərçəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə əlaqədar tədbirlər görmək vəzifəsini qoyur. Mühafizə orderinin verilməsi cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmadığından cinayət xarakterli məişət zorakılığı törədilərkən zərərçəkmiş şəxs ümumi qaydada mühafizə orderinin verilməsi üçün yerli icra hakimiyyətinə və məhkəməyə müraciət edə bilər.

Qanunun 7.0.7-ci maddəsində cinayət təqibi ilə yanaşı zərərçəkmiş şəxsə mühafizə orderinin verilməsi ilə əlaqədar tədbirlər görülməsinin nəzərdə tutulması belə nəticəyə gəlməyə imkan verir ki, cinayət təqibini həyata keçirən orqan mühafizə orderinin verilməsinin təşəbbüskarı kimi çıxış edə, həmçinin mühafizə orderinə riayət olunmasına nəzarət edə bilər. Əgər təqsirləndirilən şəxs mühafizə orderində göstərilən şərtlərə riayət etmirsə, onun barəsində seçilmiş qətimkan tədbirinin dəyişdirilməsi məsələsi meydana çıxa bilər.



Hesab edirik ki, cinayət xarakterli məişət zorakılığı törədildikdə və təqsirləndirilən şəxs barəsində azadlıqdan məhrumedilmə ilə bağlı olmayan qətimkan tədbirləri seçildiyi halda zərərçəkmiş şəxsə müdafiə orderinin verilməsi bir tərəfdən zərərçəkmiş şəxsi təkrar zorakılıq hallarından qoruyacaq, digər tərəfdən zorakılıq törətmiş şəxsə qarşı daha ağır məhdudiyyətlər nəzərdə tutan qətimkan tədbirlərinin tətbiq edilməsi zərurətini aradan qaldıracaq.

Bundan başqa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 aprel tarixli 89 saylı qərarı ilə təsdiq edilmiş "Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası"nın 3.7-ci bəndinə əsasən, cinayət təqibini həyata keçirən orqanın göndərişi əsasında zərərçəkmiş şəxslər sığınacaqla təmin oluna bilərlər.

# KOMPENSASİYA TƏLƏBİ

**Kompensasiya** – vurulmuş maddi və mənəvi zərərin əvəzinin ödənilməsidir. O, pozulmuş hüquqların bərpası formalarından biri olmaqla maddi xarakter daşıyır, yəni vurulmuş zərərin əvəzinin pulla ödənilməsini nəzərdə tutur. Pozulmuş hüquqların bərpasının prosessual xarakteri isə hüquq pozuntusunun müvafiq orqanlarda araşdırılmasının və adekvat cavab tədbirinin (məsələn, cəza təyini, cərimənin tutulması) görülməsini ehtiva edir.

Qanunvericilkdə məişət zorakılığına məruz qalmış şəxslərə kompensasiyanın verilməsi ilə əlaqədar xüsusi normalar yoxdur. Qeyd edilən məsələlərə ümumi qaydada
– hüquq pozuntusu (delikt) nəticəsində vurulmuş maddi və mənəvi zərərin əvəzinin ödənilməsi şəklində mülki mühakimə icraatı qaydasında baxılır. Kompensasiya barədə tələb həm rayon (şəhər) məhkəmələrində zorakılıq törətmiş şəxsə qarşı iddia qaldırmaqla, həm də məişət zorakılığı ilə bağlı cinayət işinin araşdırılması çərçivəsində mülki iddia verməklə irəli sürülə bilər.

**Məişət zorakılığına məruz qalmış şəxsin kompensasiya ilə bağlı tələbinə baxılarkən aşağıdakılar nəzərə alınmalıdır:**

- **cinayət işlərində maddi kompensasiya azadlıqdan məhrumetmə ilə bağlı cəzanın əvəzlənməsi üçün istifadə olunmamalıdır;**

- **kompensasiyanın məbləği təyin olunarkən o təkcə zorakılıqdan əvvəlki vəziyyətin bərpasına deyil, zorakılığa məruz qalmış şəxsin həyatına dəyişiklik gətirmək məqsədinə, habelə zorakılığa səbəb olan qeyri-bərabərliyin aradan qaldırılmasına xidmət etməlidir;**

- **zərərçəkmiş şəxsə dəymiş mənəvi və maddi zərər mümkün qədər yüksək qiymətləndirilməli, təkcə fiziki zədə deyil, psixoloji zərər, emosional pozuntu, itirilmiş imkanlar, cəmiyyətə yenidən inteqrasiya və digər amillər göz önündə tutulmalıdır;**

- **zərərçəkmiş şəxsə dəymiş mənəvi və maddi zərər mümkün qədər yüksək qiymətləndirilməli, təkcə fiziki zədə deyil, psixoloji zərər, emosional pozuntu, itirilmiş imkanlar, cəmiyyətə yenidən inteqrasiya və digər amillər göz önündə tutulmalıdır;**

- **kompensasiyanın məbləği müəyyən edilərkən sübutetmə yükünün bütün ağırlığı iddia edənin – zorakılığa məruz qalanın üzərinə qoyulmamalıdır.**

# AİLƏ MÜBAHİSƏLƏRİNƏ MÜLKİ MÜHAKİMƏ İCRAATI QAYDASINDA BAXILARKƏN MƏİŞƏT ZORAKILIĞI MƏSƏLƏLƏRİ

Ailə münasibətlərindən irəli gələn mübahisələrə (nikahın pozulması, uşaqla ünsiyyət, aliment, uşağın yaşayış yerinin, hansı valideynlə qalmasının müəyyən edilməsi, uşağın digər valideynin razılığı olmadan ölkə hüdudlarından kənara çıxarılması, valideynlik hüquqlarının məhdudlaşdırılması, valideynlik hüquqlarından məhrumetmə və s.) mülki mühakimə icraatı qaydasında rayon (şəhər) məhkəmələrində baxılır. Mülki Prosessual Məcəllədə məhkəmənin işə baxarkən tərəflərin və ya digər şəxslərin hərəkətlərində cinayətin əlamətlərini aşkara çıxardığı halda xüsusi qərardad qəbul etməklə prokurora xəbər verməsi barədə ümumi norma nəzərdə tutulmuşdur. Yəni ailə münasibətlərindən irəli gələn mübahisələrə baxılarkən də məişət zorakılığı ilə bağlı cinayət xarakterli hallar aşkar edildiyi təqdirdə hakim xüsusi qərardad qəbul etməklə bu barədə prokurora məlumat verməlidir.

Qanunvericilikdə hər hansı mülki işin araşdırılması zamanı məişət zorakılığı ilə bağlı cinayət xarakterli olmayan hallar aşkar edildiyi təqdirdə hakimin atmalı olduğu addımlar dəqiq müəyyən olunmasa da, hakim hər kəsin hüquq və azadlıqlarının dövlət təminatı kimi konstitusion prinsipi və Qanunun tələblərini əsas götürməklə məişət zorakılığından müdafiə mexanizmlərini bu zorakılığın qurbanı olduğu ehtimal olunan şəxsə izah etməli, aidiyyəti qurumlara məişət zorakılığı faktı barədə məlumat verməlidir.

**Beləliklə, mülki mübahisələrə məhkəmələrdə baxılarkən məişət zorakılığı hallarına hakim tərəfindən reaksiya verilməsi üçün zərərçəkmiş şəxs iddia predmeti ilə bağlı olmasa belə, məişət zorakılığı ilə bağlı halları hakimin diqqətinə çatdırmalı, iddia ərizəsində, etiraz və mülahizələrdə məişət zorakılığı faktlarını vurğulamalıdır.**